# Milli kukla - Balaqədeş - 60



■ Aygün Süleymanova
*teatrşünas*

Niyə də yox? Hər xalqın milli kuklası var, hər millətin özünəməxsus kuklası var. Nümunə üçün deyim ki, ruslarda bu Petruşkadırsa, biz də elə məhz Balaqədeşdir. Milli mentallığımızdan doğan həqiqi qəhrəmanın kukla prototipi. Balaqədeş isə qocaman kukla ustamız Rəhman Rəhmanovdur. 60 yaşlı yubilyarın, peşəkar kuklaçımızın, Kuklaçı sənətkarın 43 illik yaradıcılığı Azərbaycan Kukla sənətinin danılmaz faktıdır.

Arayış: Rəhman Tofiq oğlu Rəhmanov 29 aprel 1957-ci ildə Bakı şəhərində anadan olub. 8 saylı musiqi məktəbində oxuyub. 1978-1983-cü illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunun mədəni-maarif fakültəsində təhsil alıb. Televiziyanın yumor verilişlərindən tamaşaçılara yaxşı tanış olan Rəhman Rəhmanov 1974-cü ildən bu günə qədər öz həyatını Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla teatrına bağlayıb.

Nədənsə, bizim teatr yazarları kuklaçıların oyununu təhlil etmir, edirsə də təsadüfi hallarda. Nədənsə biz ya kuklanı ciddiyə almırıq, ya da ki, kuklanı təhlil etməyi məntiqli hesab etmirik... kukladır da... deyirik. Amma Kukla - prototipdir... Kukla - maskadır... ...İlk insan ritual maska geyinib. Qədim misirlilər Allah Osirisə həsr olunmuş bayramlarda daş heykəlciklər hazırlayırdılar. Qədim yunan aktyorları isə qəddar və xeyirxah qəhrəmanların, adi ölülərin və Allahların maskalarını geyinirdilər. Qədim Roma kuklaları başlarını tərpədir və döndərirdilər. Katolik madonnaları göz yaşı axıdırdılar. Xalq personajları Petruşka, Pançi, Polişineli, Qansvurst isə kultun daşıyıcıları idilər. Tarixin personajları kuklaların obrazında canlanırdı.

Rəhman Rəhmanov da məhz tariximizin 43 illik kuklasıdır. 43 ildir ki, səhnəmizin Balaqədeşi kuklaların dilində milli kultural dəyərləri yaşadır. Hətta yubilyarın xarici görünüşünə baxanda insan vahiməyə gəlir: "bu boyda da kukla olar". Ancaq kukla obrazları Rəhman Rəhmanovun dilindədir, səsindədir, məsum münasibətindədir.

Arayış: Anarın "Qaravəlli" tamaşasında Balaqədeş, Mirzəağa Atəşin "Cırtdan" tamaşasında Div, Əli Səmədlinin "Cubbulunun çərpələngi" tamaşasında Div və Qədeş, Tofiq Mütəllibovun "Meşə nağılı" tamaşasında Təkgöz kişi, Tofiq Kazımovun "Qoçaq Polad" tamaşasında Balıqçı, Hikmət Ziyanın "Əkiz qardaşlar" tamaşasında Səfər, Rəhman Əlizadənin "Sindibadın xoşbəxtlik adasına səyahəti" tamaşasında Oğru, Əli Səmədlinin "Əzablı günlərin sonu" tamaşasında Qoca zənci, Rada Moskovanın "Hara qaçırsan, dayça?" tamaşasında Balaqan sahibi, Əyyub Abbasovun "Keçinin qisası" tamaşasında Canavar, Nicat Kazımovun "Ələddin" tamaşasında Şah, Eldar Baxışın "Məlikməmməd" tamaşasında Şah rollarını ifa edib.

Rəhman Rəhmanov 2006-cı ildə mono tamaşalar festivalında Əyyub Abbasovun "Şəngülüm, Şüngülüm" tamaşasında mükəmməl ifasına görə "Qızıl Dərviş" mükafatını qazanıb. Azərbaycan teatrının inkişafındakı xidmətlərinə görə 7 mart 2014-cü ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adına layiq görülüb, Prezident Mükafatçısıdır.

Bilənlər bilir, bilməyənlər də bilsinlər ki, bizim Balaqədeş-Rəhman Rəhmanov Kubinkada böyüyüb. Nənəsinin himayəsində çətinliklə boya-başa çatıb. Onun yaratdığı kuklalar da məkanına və zamanına ekvivalent tiplərdir. Rəhman Rəhmanovun səhnəyə gəlişi də fərqli olub. Normalda Kukladan Akademik teatra gəlirlər və bunu aktyorun sənət yüksəlişi hesab edirlər, ancaq yubilyar əksinə Akademik teatrdan Kukla teatrına gəlib. Akademik Milli Dram Teatrında yardımçı heyətin aktyoru işləyib. Xalq artisti Lütfi Məmmədbəyov onun müəllimi olub. Bu sənətə aktyoru məhz o gətirib, səhnədə necə dayanmağı, necə hərəkət etməyi o öyrədib.

Aktyorun səhnəyə gəlişi haqqında müsahibələrin birində danışdığı əhvalat diqqətimi çəkdi: "13 yaşından Lütfi müəllimin rəhbərlik etdiyi xalq teatrının üzvü olmuşam. İki ildən sonra dedi ki, İncəsənət İnstitutu ilə danışmışam, səni ora götürəcəklər və müəyyən qədər güzəşt edəcəklər. O, mənə bu yaxşılığı etmək istəyirdi və inanırdı ki, məndən yaxşı aktyor olacaq. Onun daha bir yaxşılığı 15 yaşında ikən məni "Azdrama"ya aparması oldu. Doğrudan da, böyük məktəb keçdim. Amma nə gizlədim, İncəsənət Gimnaziyasının 4-5-ci sinfində oxuyanda Kukla Teatrına, kukla tamaşalarına meylim yarandı. Çünki Kukla Teatrı vaxtaşırı öz tamaşalarını bizim İncəsənət Gimnaziyasında nümayiş etdirirdi. Dostum bu teatrda texniki işçiyidi, bir gün onu ziyarət üçün bura gələndə, zala girib, səhnəni gördüm və daha dözmədim. Dostuma dedim, görəsən, teatrda mənə iş olar? Dedi aktyor ştatında yer yoxdur, amma texniki işçi ola bilərsən. Beləcə məni işə götürdülər. İnanırsınız, səhnənin damına çıxırdım, təmizləyirdim, pərdələrini silirdim. Bunu da bütün teatr görürdü. Texniki işçi ola-ola mənə xırda-xırda rollar da həvalə edirdilər. Görürdülər bura fəhləliyə deyil, aktyorluğa görə gəlmişəm. Təyinatla teatra aktyor göndərmişdilər, amma boş qalan aktyor yerinə onu deyil, məni götürdülər. Çünki mən aktyor kimi özümü doğrultmuşdum. Beləcə 1974-cü ildən bu teatrdayam".



Rəhman Rəhmanovun 60 illik yubileyi heç kəsin diqqətindən kənarda qalmadı. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Teatr Xadimləri İttifaqının təşkilatçılığı ilə 28 aprel 2017-ci il tarixdə Respublikanın Əməkdar Artisti, "Qızıl Dərviş" mükafatı laureatı Rəhman Rəhmanovun 60 illik yubileyi münasibəti ilə tədbir keçirildi. Tədbirin aparıcısı, Teatr Xadimləri İttifaqının sədr müavini, Xalq Artisti, Dövlət mükafatı laureatı Hacı İsmayılov yubilyarı təbrik edərək, onun Kukla Teatrında keçdiyi 43 illik sənət yolundan danışdı. Sonra o, sözü İttifaqın sədri, Xalq Artisti, professor Azər Paşa Nemətova verdi. A.Nemətov Rəhman Rəhmanovun yaradıcılığı, çoxsaylı müsbət keyfiyyətləri haqqında danışıb, onu səmimi qəlbdən təbrik etdi və İttifaqın simvolik hədiyyəsini - "sehrli mücrü"nü ona təqdim etdi. Kukla Teatrının direktoru, Əməkdar Mədəniyyət İşçisi Rəşad Əhmədzadə Rəhman Rəhmanovun teatra, kukla sənətinə sıx tellərlə bağlılığından söz açdı, ona bundan sonrakı fəaliyyətində böyük uğurlar arzuladı. Sənət dostları - Kukla Teatrının baş rejissoru Qurban Məsimov, te-




leviziya rejissoru, Əməkdar İncəsənət Xadimi Məhərrəm Bədirzadə, Xalq Artisti Heydər Anatollu və digərləri sənətkarın şəxsiyyəti və sənəti haqqında xoş sözlər söyləyib, onu 60 yaşı münasibəti ilə təbrik etdilər. Tədbirdə Rəhman Rəhmanovun çəkildiyi tamaşalardan və filmlərdən fraqmentlər göstərildi, həyat və yaradıcılığına həsr edilmiş fotostend iştirakçılara təqdim olundu. Sonda iştirakçılar xatirə şəkli çəkdirdilər.

Qeyd edək ki, aktyorun yubiley tədbirləri davam edir. Mayın 5-də Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi, Kukla Teatrının təşkilatçılığı ilə Azərbaycan Dövlət Kukla Teatrında R.Rəhmanovun 60 illik yubileyinə həsr olunmuş "85 yaşlı teatrın 60 yaşlı aktyoru" adlı gecə keçiriləcək. Teatr ictimaiyyətinin, mədəniyyət və incəsənət xadimlərinin, teatrsevərlərin iştirak edəcəyi tədbirdə aktyorun uzunmüddətli yaradıcılıq yoluna nəzər salınacaq. Onun aktyor tərcümeyi-halını əks etdirən çarx nümayiş olunacaq, ona tamaşaçı rəğbəti qazandıran tamaşalarından səhnəciklər nümayiş olunacaq.

Və... Özünün dediyi kimi, Rəhman Rəhmanov sırf azərbaycanlıdır. Və ancaq Azərbaycan tamaşaçısı üçün oynaya bilir.

Biz də təbriklərə qoşuluruq. Bu da olsun bizdən milli kuklaçımızın - Balaqədeş-Rəhman Rəhmanovun yubile yinə kiçik hədiyyə.



## Sovremennik Londonda...

3 may 2017-ci il tarixindən Moskvanın "Sovremennik" teatrının Böyük Britaniyanın paytaxtı London şəhərində qastrol tamaşalarına start verilib.

Londona 98 nəfərlik heyətlə yollanan kollektiv 13 may tarixinədək Piccadilly Theatre səhnəsində Erix Mariya Remarkın romanı əsasında "Üç dost", Uilyam Qibsonun əsəri əsasında "Yellənçəkdə iki nəfər" və Anton Çexovun "Üç bacı" pyesi əsasında eyniadlı tamaşalarını təqdim edəcəklər.

## Sardes teatr günləri

May ayının 2-dən Türkiyənin Manisa əyalətinin Salihli şəhərində uşaqlar tərəfindən hazırlanan tamaşaların nümayiş etdiriləcəyi Sardes teatr günləri rejissor Rasim Aşının quruluş verdiyi "Midasın macəraları" tamaşası ilə başlayıb.

May ayının 9-dək davam edəcək teatr günlərində "Ahşap konak", "Altin kend sardes", "Sardes macəraları" və s. tamaşalar nümayiş olunacaq.

## Beynəlxalq Karadəniz teatr festivalı

Türkiyə dövləti teatrları genel müdirliyi və Trabzon dövlət teatrlarının təşkilatçılığı ilə 18-ci Beynəlxalq Karadəniz teatr festivalına start verilib.

2-20 may tarixləri arasında gerçəkləşəcək festivalda Litva, Qazaxıstan, Rusiya, Ukrayna, İspaniya, Rumıniya və Bosniya-Hersoqovina teatrları çıxış edəcəklər.